

## İsmayıl Mərcanlı İmanzadə

### Ana vətən sənindir

*Ulu Tanrıdan cəmi şəhidlərimizə qəni-qəni rəhmət diləyirəm!*

Şəhidim, əhsən sənə,
Vətənə bəxş etdiyin
Zəfərin nə gözəlmiş!
Yurd amalınla birgə
Şəhid ucalığından
Tanrının dərgahına
Səfərin nə gözəlmiş!

Könlümüzü oxşadı
Yenilməz hünərindən
Soraq verən hər anın.
Gəzdi dildə-ağızda
Torpağın sinəsinə
Al qanınla yazdığın
Qəhrəmanlıq dastanın...

Bu müqəddəs savaşda
Düşmən bağrı çatladan
Cəsarətinə alqış!
Nəsillərə nümunə -
Ülvi Vətən eşqinə,
Saf niyyətinə alqış!

Şəhidim, ölümünlə
Dönüb ölümsüz oldun,
Qazandığın bu halal
Şöhrət, ad-san sənindir!
Haqqın var zaman-zaman
Əbədi yaşamağa,
İndi hamıdan qabaq
Uğrunda can verdiyin
Qarabağ, Ana Vətən -
Azərbaycan sənindir!

09.12.2020

### Türkiyə-Azərbaycan

Bir-birinə bənzəyir
Əkiz qardaşlar kimi.
Tanınıblar ən əziz
Dostlar-sirdaşlar kimi.
Ləhcələri şipşirin,
Harda var belə sərvət?
Müdriklər yaxşı demiş-
"Bir millət, iki dövlət"!
Sən bir möcüzəyə bax,
Biri ürək, biri can-
Türkiyə-Azərbaycan!

Ay-ulduz nişanlıdır
Möhtəşəm bayraqları.
Şimşək kimi çaxıblar
Tapdananda haqları.
Ləkəsiz bir aynadır
Dənizləri, gölləri.
"Can" deyib, "can" eşidir
Obaları, elləri.
Dağları şah vüqarlı,
Həm sultandır, həm də xan-
Türkiyə-Azərbaycan!

Yenilməz dar ayaqda
Ərənləri, ərləri.
Şəhid ucalığından
Güc alıb zəfərləri.
Cavad xan, Məmməd Əmin,
Atatürk, Heydər adlı
Qibləgahları canlı.
Ulu tarixlərinin
Hər sətri, sözü şanlı.
Böyük türk dünyasının
Cismində dövr edən qan-
Türkiyə-Azərbaycan!

Düşmənə göz dağıdır
Şəhərləri, kəndləri.
Bir qala timsallıdır
Bərələri-bəndləri.
Əzəl gündən hər biri
Dosta-dostdur, yada-yad.
Keçmişləri şərəfli,
Çağdaş günləri abad.
Dar ayaqda yan-yana
Dayanıbdılar hər an-
Türkiyə-Azərbaycan.

fevral,2017

### Xudafərin körpüsü

Ay ulu daş kitabəm, gəcavəm, taxtım mənim.
Bakı-Təbriz biçimli könül paytaxtım mənim.
Vüsala həsrət qalan taleyim, baxtım mənim-
Şahım, xanım, sultanım-Xudafərin körpüsü.

Arazın sinəsində daşlaşan su sonası,
Tanrıya şükranlıqdır adının ilk mənası.
Vətənin iki qütbə parçalanmış dünyası-
Xəttim, imzam, ünvanım-Xudafərin körpüsü.

Hər aşırımın su yolu, hər tağın bir möcüzə,
Qəzəbin mürgüləyən sivri uclu bir nizə.
Bilən yox, daş dilində nələr deyirsən bizə-
Rəvayətim, dastanım-Xudafərin körpüsü.

"Gülüstan"da boğulan səsimsən-avazımsan,
"Türkmənçay"da sərhəddə çevrilən Arazımsan.
Sağalmayan yaramsan, qanlı alın yazımsan-
Varlığım, and-amanım-Xudafərin körpüsü.

2012

### Gəldim

Dünyanın hər üzünə
Olmadım halı, gəldim.
Nə atlı, nə dəvəli,
Nə barxanalı gəldim.

Şaxtalı qışı gördüm,
Qarı-yağışı gördüm.
Eniş-yoxuşu gördüm,
Dolandım yalı, gəldim.

Təzə arzu-həvəsdim,
Yaşamağa tələsdim.
Zülmət qarşımı kəsdi,
Azmadım yolu, gəldim.

Üstümə yağanda daş,
Bildim nədir cəng-savaş.
Dünyaya əlləri boş,
Ürəyi dolu gəldim.

### Öyrən

Həyatda büdrəsən hardasa hərdən,
Çalış öz gücünlə qalxasan yerdən.
Dolaşıq salarsan hesabı birdən,
Əvvəl barmağını saymağı öyrən.

Xoş sözün baldan da şirindir tamı,
Çalış hər işini xoşlasın hamı.
Nə var uçurmağa divan-damı,
Daşı-daş üstünə qoymağı öyrən.

Haqqım yox deyəm ki, sən yada oxşa,
Tufana oxşasan, dəryada oxşa.
Şirinə can atan Fərhada oxşa,
Dağların köksünü oymağı öyrən.

Gəc baxma heç vədə haqqın yoluna,
Büdrəyən görəndə acı halına.
Çevrilmə tamahın-nəfsin quluna,
Halal qazancınla doymağı öyrən.

Keçilməz deyildir sədd də, barı da,
Bil ki, əl çirkidir dünya varı da.
Bir gün yorulsan da qalma yarıda,
Yolun damarını qırmağı öyrən.

Uzaq dur, yolunu kəsən "kötük"dən,
Dərdlə üz-üzədir, çəkinmə təkdən.
Özünə arxalan, tutma ətəkdən,
Yıxılıb, ayağa durmağı öyrən.

### Qapı arxasında dayanan uşaq

Qapı arxasında dayanma belə,
Öyrəşmə indidən bu "get-gəl"lərə.
Bəlkə ağlın kəsmir, uşaqsan hələ,
Tapşırma bəxtini özgə əllərə.

Görünən o yollar üzünə açıq,
Səndən uzaqdadır hələ ehtiyac.
Qısılma səbrinə, dur ortaya çıx,
Bağlı qapıları öz əlinlə aç.

Üzdən tanımırsan nisgili-qəmi,
Qayğılar çiynində ağır yük deyil.
Atdığın xırdaca addımlar kimi
Hələ istəyin də çox böyük deyil.

İndidən qürurun qalmasın qında,
Ətəkdən tutmağa çalışma, uşaq.
Bir meşin sifətli qapı dalında
Boynunu bükməyə alışma, uşaq.

Yoxuşu qalxmağı gəl, sanma asan,
Yorulsan qolundan tutan tapılar.
Ağılla-kamalla əgər ucalsan
Açılar üzünə bağlı qapılar.

Getdiyin yollarda batmasın səsin,
Mayası yoxdursa göyərərmi dən?
Çalış ki, üstünə kölgə düşməsin,
Özünə arxalan, özünə güvən...